# Yenilməz oğullardan biri - şəhid Vüqar Ələkbərov

**Adını anası Vüqar qoyub. "Bu uşaq böyüyüb fəxrimiz, vüqarımız olacaq", - deyib. Valideynləri onun gələcəyinə böyük ümidlər bəsləyiblər. Həyata keçirə bilmədikləri arzuları Vüqarın gerçəkləşdirəcəyini düşünüblər...**



## Ailəsinə bağlı övlad

1994-cü il noyabrın 16-da Ucar rayonunun qədim Qazyan kəndində sadə, zəhmətkeş ailədə dünyaya gəlib Vüqar Ələkbərov. Atası Telmandan, anası Şainadan halallığı, əməksevərliyi, dürüstlüyü öyrənib. Ailənin ilk övlad kimi çox sevilsə də, əzizlənsə də, ərköyün böyütməyiblər onu. Kiçik yaşlarından zəhmətə alışıb, çətinlik görüb.

2001-ci ildə Qazyan kənd 2 saylı orta məktəbin birinci sinfinə gedib. Bütün fənlərdən yüksək qiymət alıb. Doqquzuncu sinfi əla qiymətlərlə başa vuranda təhsilini kollecdə davam etdirmək istəyi müəllimlərini təəccübləndirib. Onlar əlaçı şagird olan Vüqar Ələkbərovun orta məktəbi bitirdikdən sonra universitetlərdən birinə daxil olacağını düşünürdülər. Kiçik yaşlarından valideynlərinə çox bağlı olan Vüqar istəyirdi ki, tez böyüsün, onları ağır zəhmətdən qurtarsın. Ona görə də kollecdə təhsil alıb işləmək niyyətindəydi. O, əliqabarlı, zəhmətkeş ata-anasına arxa, kömək olmağı özünə övladlıq borcu sayırdı.

Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin Avtomobillərin Təmiri və Servisi fakültəsinə daxil olub. Kollecdə fəal tələbə kimi fərqlənib. Təhsilini müvəffəqiyyətlə başa vurub. 2014-cü il iyulun 6-da Ucar Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırıldı. Azərbaycan Respublikasının Daxili Qoşunlarında xidmətə başladı. 2015-ci ildə ona "baş əsgər" hərbi rütbəsi verildi.

Əsgərlikdə olanda yaxşı xidmət etdiyi üçün məzuniyyətə buraxıldı. Doğma kəndinə gələndə özü ilə yeni arzular, ümidlər gətirdi. Sevincini yaxınları ilə bölüşdü: "Məni hərbidə saxlamaq istəyirlər", - dedi. İntizamlı, məsuliyyətli, təpərli, cəsarətli olduğunu xidmət etdiyi hərbi hissədə də göstərə bilmiş və buna görə komandanlığın diqqətini çəkmişdi...

Ata-anası onda bildi ki, Vüqar artıq yalnız sevən, əziyyətdən qurtarmaq, ağır işləri yüngülləşdirmək, qayğılarını çəkmək istəyən övladları deyil. Vüqar həm də Vətənin övladıdır. Əvvəldən işin asanının ardınca gedən deyildi. Bəlkə də çətinliklə böyüdüyü üçün çətinliklərdən qorxmurdu. Elə şərəfli hərbçi peşəsini ona seçdirən Vətənə sevgisi, övladlıq borcu idi. Qarabağdan, işğalçı ermənilərdən söz düşəndə yumruqları düyünlənir, dişlərini bir-birinə elə sıxırdı ki... Vüqar Ələkbərov Vətənini düşünən, onun bütövlüyünü arzulayan və Ermənistan silahlı qüvvələrinin işğalında qalan torpaqlarını azad etmək arzusunda olan vətənpərvər idi. Bu sevgi ilə, bu məqsədlə hərbçi olmaq istəyirdi.

## Vətən torpaqlarının azadlığı uğrunda canından keçən vətənpərvər

Vüqar Ələkbərov 2016-cı ilin 1 yanvarında həqiqi hərbi xidmətini başa vuranda artıq yolunu seçmişdi. Hərbi xidmətdən ayrılmayacaq, torpaqlarımız düşmən əsarətindən qurtulanadək hərbi formanı çıxarmayacaqdı. 2016-cı il yanvarın 2-də Daxili Qoşunların Bərdədə yerləşən "N" saylı hərbi hissəsində MAXE kimi fəaliyyətə başladı. 2017-ci ilin yanvarından Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrində xidmətini davam etdirdi. 2017-ci ilin 11 fevralından isə DQ-nin Xüsusi Təyinatlı Qüvvələrinin tərkibində Gəncə şəhərində xidmət göstərdi. 2017-ci il mayın 29-daVüqar Ələkbərova kiçik gizir hərbi rütbəsi verilərək "KORD" iriçaplı pulemyotçular dəstəsinin yarımqrup komandiri vəzifəsinə təyin olundu. Həmin il DQ-nin Baş İdarəsinin təşkil etdiyi "Əlbəyaxa döyüşlər" üzrə keçirilən təlimlərdə xüsusi fərqlənərək üçüncü yeri tutdu. 2018-ci ildə o, gizir rütbəsinə yüksəldi. 2019-cu ildə Xüsusi Təyinatlıların yarımqrup komandiri Vüqar Ələkbərov zirehli hərbi maşına rəhbər təyin olundu. 2020-ci iledək müxtəlif hərbi təlimlərdə iştirak edərək fərqləndi.

Mənəvi cəhətdən güclü, iradəli, fiziki cəhətdən qüvvətli, qəlbi vətən eşqi ilə döyünən gənc hərbçi hərbi təlimlərdə fərqlənir, döyüş tapşırıqlarını qüsursuz, məsuliyyətlə yerinə yetirirdi. Vüqar Ələkbərov DQ XTQ-nin tərkibindən Müdafiə Nazirliyinin XTQ-nin "052 YAŞMA" Əlahiddə Alayının kəşfiyyat qrupuna köçürüldü.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladı. Vüqar Ələkbərov o zaman XTQ-nin kəşfiyyat taborunda pulemyotçu köməkçisi vəzifəsini yerinə yetirirdi. O, Kəlbəcər rayonunda yerləşən Murovdağ silsiləsinin, Hadrut, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərdi. Düşmənin 2 yüksəkrütbəli zabitini, 20-dən çox hərbi qulluqçusunu məhv etdi.

Gənc idi. Həyatı çox sevirdi. Zarafatcıl, şən, deyib-gülən idi. Boy-buxunlu, qədd-qamətli, güclü idi. Hərbi forma ona elə yaraşırdı ki... Gələcəyə ümidlə baxır, planlar qururdu. Gözəl arzuları, xəyalları arasında "Vağzalı" səsi-sədası da vardı. Sevdiyi qızla nişanlı idi. Tezliklə toy edəcəkdi. Doğma kəndi Qazyanda, ata evində mağar toyu quracaq, bəy tərifi eşidəcəkdi... "Əsas odur ki, bu müharibə bitsin, torpaqlarımızı erməni işğalından azad edək, sonra işlər qaydasına düşər", - deyə düşünürdü.

Vüqar Ələkbərov 2020-ci il oktyabrın 12-də Füzuli rayonunun Ağcakənd istiqamətində gedən döyüşlərdə düşmən pulemyotunun açdığı atəş nəticəsində ürəyindən yaralanaraq qəhrəmancasına şəhid oldu. Oktyabrın 15-də doğulduğu Qazyan kəndində torpağa tapşırıldı. Dəfn mərasimi izdihamla keçdi. Şücaəti yüksək dəyərləndirildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə gizir Ələkbərov Vüqar Telman oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

Ayrılıq dərdi ağırdır, dözülməzdir. Şəhid Vüqar Ələkbərovun dərdi də atasının belini büküb, anasının gözlərini yaşlı qoyub. Amma bir təsəlliləri var ki, Vətənin şərəfini Vüqar kimi övladlar qoruyub. Belə oğulları ilə yenilməz olur, ucalır Vətən.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***